# YER PLANETİNƏ ƏYLƏNCƏLİ SƏYAHƏT





Qi Or El

# YER PLANETİNƏ ƏYLƏNCƏLİ SƏYAHƏT

## BİLƏCİKLƏ NİYƏCİYİN MACƏRALARI



İllüstrasiyalar Sevil Rafailovaya aiddir

**Qi Or El. Yer planetinə əyləncəli səyahət**
Bakı, "Yonca", 2024, 80 səh.

Yaş qrupu: 4-6
Ölçü: 205x290 mm
Cild: yumşaq
Çapa imzalandı: 29.06.2024

"Yonca" nəşrlərinin "Biləciklə Niyəciyin macəraları" silsiləsindən sizə təqdim etdiyi bu kitab "Yer planetinə əyləncəli səyahət" adlanır.

Niyəciyi maraqlandıran suallar var: Planetimiz necə qurulub? Nəyə görə dağların yamacında ağaclar bitir, zirvəsində buzlaqlar olur? Dalğalar nədən yaranır, külək necə əsir? Nəyə görə çayların suyu qurtarmır? Dənizlər nəyə görə daşmır? Ayağımızın altındakı istilik mənbəyi nədir?

Bütün bu kimi suallara cavab tapmaqda Niyəciyə sevimli qardaşı Biləcik və onların "Bi-Ni-001" adlı sehrli qutusu kömək edəcək. Bu kitabda Biləciklə Niyəcik yenə maraqlı səyahətlərə çıxacaq, okeanlara, dənizlərə, dağlara gedəcək, vulkanlarla tanış olacaq, qeyzerdə çiməcək, suyun altı ilə üzüb aysberqlərə baxacaqlar.

Kitab məktəbəqədər yaşlı uşaqlar üçün nəzərdə tutulub.

ISBN 978-9952-38-978-4

© Əyyub Qiyas, 2024
© "Yonca", 2024

Yonca Uşaq ədəbiyyatı ilə bağlı bütün təklif və iradlarınızı bu ünvana yazın: yoncakitab@gmail.com



# Mündəricat


Dostum, gəl tanış olaq! 7

Sorğu-sual başlayır. Materiklər və okeanlar 9

Hava okeanı. Yerin atmosferi nədir? 19

Yerdən yuxarıda. Paralellər və meridianlar 22

Ətəkdən zirvəyə qədər. Dağlar və göllər 29

Dənizlər və okeanlar. Suyun təbiətdə dövriyyəsi 35

Külək və dalğalar. Sakit dənizdən sunamiyə qədər 42

Aysberqlər. Şirin su dağları 51

Planetimiz necə qurulub? Yerin dərinliklərində 56

Vulkanlar və isti çeşmələr (qeyzerlər). Qaynayan planet 63

Evimizdəyik 71



# DOSTUM, GƏL TANIŞ OLAQ!

Salam, Dost! Mənim adım Biləcikdir. Əslində, öz adım başqadır, ancaq hamı mənə Biləcik dediyinə görə əsl adımı unutmuşam. Qardaşım Niyəciklə mən bir otaqda qalırıq, günün çox hissəsini bir yerdə keçiririk.

Niyəciyin də öz adı var, amma çox sual verdiyinə görə adı Niyəcik qalıb.

Bu otağı atam bizim üçün hər şeylə təmin eləyib. Otağımızda kompüter, qlobus, kitablar, xəritə, akvarium və bir də adını "Bİ-Nİ-001" qoyduğumuz zaman qutusu var. Bu qutunu da atam düzəldib. O, alimdir axı. Heç bilirsiniz, o nə qutudur? Bir azdan deyərəm.

Atamın bizə bağışladığı kitabların çoxunu oxumuşam. Qardaşım Niyəcik isə daha çox şəkillərə baxır, kompüterdə oyun oynayır, bir az boş vaxtı olan kimi də mənə suallar verməyə başlayır. Onun suallarına həvəslə cavab verirəm. Axı o məndən bir yaş balacadır. Qardaşım Niyəciklə mən müxtəlif mövzularda söhbət edirik. Əslində, o mənim hansı kitabı oxumağımla maraqlanır və söhbətimiz də həmin kitabla bağlı olur.

Bayaq demişdim axı, otağımızda "Bİ-Nİ-001" var. Bu - qoşa qapıları şüşəli olan dolab kimi bir şeydir. Onun içində iki üz-üzə kreslo quraşdırılıb. Divarında rəqəmlər olan panel və monitor var. Biz həmin qutunun içində oturub, kəmərlərimizi bağlayırıq. Sonra mən rəqəmlər olan paneldə dördrəqəmli şifrəni yığıram. Sonra "Bİ-Nİ-001" bizi qısa müddət ərzində istədiyimiz yerə aparır və beləcə maraqlı səyahətimiz başlayır. Qardaşım Niyəciklə mən xeyli səyahətdə olmuşuq. Onlar haqqında sizə mütləq danışaram.

Bu gün öz planetimiz - Yer haqqında maraqlı bir kitab oxuyuram. Yəqin indi Niyəcik gələn kimi suallarını yağdıracaq.